KANT

KNOWLEDGE FOR
ANTI-MILITARISM
AND NO-WAR
TEACH-INS

# "PLANETİMİZ YÜRÜŞ ZAMANI TƏR İÇİNDƏ QALAN ƏSGƏRƏ BƏNZƏYİR":



Müasir militarizmin mənşəyi.
Tənqidi icmal təcrübəsi.

**Müasir militarizmin ideologiyası və təcrübəsinin köklərini hansı dövrlərdə və dünyanın hansı bölgələrində axtarmaq lazımdır?**

Əgər İosif Brodskinin sözlərinə uzunmüddətli militarizasiya prosesinin nəticələrini çox dəqiq əks etdirən bir metafora kimi müraciət etsək, söhbət belə bir sualın cavabını axtarmaqdan gedir: tarixin müəyyən bir anında necə oldu ki, bütün planetimiz yürüşdə tər içində qalan əsgərə bənzəməyə başladı?

"Militarizm" sözünün ilk assosiasiyaları — müharibə, ordu və kütləvi silahlı zorakılığa haqq qazandıran xüsusi ideologiya arasındakı birbaşa əlaqədən ibarətdir. Artan hərbi büdcələri də xatırlamaq olar — bu mövzu KİV-də mütəmadi müzakirə olunur.Lakin düşünmədiyimiz və ya sadəcə bilmədiyimiz çox sayda daha dərin səbəblər və əlaqələr də mövcuddur.

Militarizm ilə iqtisadiyyatda dominant olan kapitalizm arasında birbaşa əlaqə mövcuddur. Məsələ bundadır ki, müasir militarizmin yaranması müasir kapitalist iqtisadiyyatının formalaşması ilə sıx bağlı olub. Öz növbəsində, militarizm və kapitalizm yeni imperiyaların — Niderland, Britaniya, Fransa, Rusiya və digərlərinin, eləcə də müasir milli dövlətlərin yaradılmasına sədaqətlə xidmət edib.

**Militarist ideologiyaların və praktikaların inkişafı millətçilik ideologiyasının formalaşması ilə ayaqlaşırdı və orduların tədricən milliləşməsində öz əksini tapırdı.** Nəticədə kütləvi milli və ya başqa sözlə desək, mütəmadi "xalq orduları" hərbi kampaniyalar üçün toplanıb aradakı fasilələrdə buraxılan, sayca daha az olan feodal cəngavər dəstələrini və muzdlu kondotyer ordularını əvəz etdi.

Əlbəttə, yeni dövrdə cəmiyyətlərin militarizasiya prosesini anlamaq üçün müharibə aparma prinsiplərinin — **başqa sözlə, təşkilatlanmış kollektiv zorakılıq prinsiplərinin** — necə dəyişdiyini bilmək vacibdir.
Lakin bundan da vacibi müharibələr, kapitalizm, imperializm, milli dövlət və militarizm arasında dərin və çox vaxt görünməyən əlaqələri izləməkdir.

Çoxsaylı müharibələrin məqsədlərinin necə dəyişdiyini anlamaq da vacibdir. Bu müharibələr getdikcə monarxların, feodalların və ya hansısa dini icmaların maraqları naminə yox, sürətlə güclənən yeni burjuaziya sinfinin maraqları uğrunda aparılmağa başladı.

Birinci Dünya müharibəsinin başlanmasına az qalmış alman sosioloq Verner Zombart yazırdı:

> “Biz müasir kapitalizmin mənşəyini araşdıranda və onun meydana gəldiyi xarici şəraiti yada salanda, diqqətimiz demək olar ki, qaçılmaz şəkildə xaç yürüşlərindən Napoleon kampaniyalarına qədər olan dövrü dolduran bitməyən çəkişmələrə və müharibələrə yönəlir [...]. Sadə məntiq bizi inandırır ki, müharibə ilə kapitalizm arasında müəyyən bir əlaqə mövcuddur.”

Zombart bu, ilk baxışda “sadə” görünən bu fikrini “Müharibə və kapitalizm” adlı kitabında əsaslandırmağa çalışıb.

Davam etməzdən əvvəl qeyd edim ki, SSRİ-nin dağılmasından sonra sosialist quruculuğunun uğursuzluqları kapitalizmə tənqidi nəzərlə baxmaq üçün ciddi maneəyə çevrildi və onun qaranlıq tərəfləri barədə tənqidi müzakirələrin inkişafına əngəl oldu. Militarizmin tənqidi araşdırmaları üzrə zəngin ənənə isə post-sovet oxucusu üçün hələ də əsasən əlçatmaz olaraq qalır. Buna görə də kapitalizm ilə militarizm arasında uzun illərdir müzakirə olunan, Zombartın ifadə etdiyi kimi, “sadə” və ya aşkar əlaqələri yenidən xatırlatmaq lazım gəlir.

## HƏRBİ İNQİLAB

Müasir militarizmin mənşəyini müxtəlif Avropa dövlətlərinin ərazilərində axtarmaq lazımdır. Xüsusilə də Niderland, İsveç, Prussiya və Fransada.
Müasir militarizm Renessans və erkən Yeni zaman dövrlərində formalaşmağa başlamışdı.
Müasir militarizmin ideologiyalarının, institutlarının və praktikalarının, həmçinin orduların milliləşdirilməsi prosesinin formalaşması bir neçə əsr — təxminən XV–XVI əsrlərdən XIX–XX əsrlərin əvvəllərinə qədər davam edib.

Böyük miqyaslı dəyişikliklər, müharibələrin aparılma üsullarında **odlu silahların ixtirası** ilə bağlı idi. Artilleriya və müşketlər bütün alışılmış qaydaları dəyişirdi. Tarixçi Maykl Roberts bu kəskin dəyişiklikləri çox uğurlu şəkildə “hərbi inqilab” termini ilə ifadə edib.

Bir çox tarixçi Robertsın bu ideyasını inkişaf etdirməyə davam edib və ya onunla polemikaya girib. Lakin onun bir sıra tezisləri bu gün də kifayət qədər aktual səslənir. Xüsusilə **də “hərbi inqilab” ın dövlət sistemlərindəki dəyişikliklərə necə** təsir göstərdiyi barədə düşüncələri böyük əhəmiyyət daşıyır.

Roberts qeyd edir ki, hərbi xərclərin artması səbəbindən dövlət strateji resursları (mis və ya barıt kimi) nəzarətdə saxlamağa çalışır və təbəələrinin həyatına getdikcə daha israrla müdaxilə edirdi. Məsələn, İsveçdə

və İngiltərədə şora toplayanlar sərt axtarışlar aparırdılar. Dəyişikliklər maliyyə sahəsinə də təsir göstərdi. Ordular durmadan böyüyürdü və artıq yalnız dövlət onları saxlamağa və müharibələr aparmağa qadir idi. Bununla belə, bitib-tükənməyən müharibələr dövründə bütün monarxlar maliyyəçilərdən borc almağa məcbur olur və dərin borca batırdılar.

Roberts bizə həmçinin belə deyir:

> “Daha sərt intizam, yeni xətti taktikanın tələb etdiyi, dəqiq işlənmiş mexaniki məşqlər həmin dövrün mütləq hakimiyyətə doğru meyli ilə üst-üstə düşür və böyük ehtimalla onu gücləndirirdi: döyüş meydanında özünü bu qədər yaxşı göstərən intizamın vətəndaş cəmiyyətinə tətbiq edildiyi təqdirdə, eyni dərəcədə qənaətbəxş nəticələr verə biləcəyi fikri çox cəlbedici görünürdü. Hakim getdikcə daha çox baş komandanla eyniləşdirilirdi və yeni intizamla sıravi hazırlıqdan sadəcə avtokrat deyil, özünü “Kriegsherr” [Sərkərdə] adlandırılmasına sevinən xüsusi tip avtokrat doğuldu.”

17-ci əsrin sonuna doğru absolutist meylli monarxlar artıq hərbi formanı özləri üçün adi geyim hesab etməyə başlamışdılar. Məsələn, İsveç kralı XII Karl və ya Prussiya monarxı I Fridrix Vilhelm məhz belə davranırdı.

Roberts həmçinin qeyd edirdi:

> “[Həmin XVII] əsrin sonuna doğru monarxlar, əsasən, öz orduları üzərində effektiv nəzarət əldə etdilər. Bu, mühüm hadisə idi, çünki ordular (həmçinin donanmalar) kral mülkiyyətinə çevrilən kimi onların daha sonra tamamilə milli ordulara transformasiyasının yolu açıldı”.

Məhz bu proses 19-cu əsr boyunca davam etdi.

Bu uzun və mürəkkəb prosesi bir neçə konkret nümunə üzərində göstərməyə çalışacağıq.

Çoxlu detallar və xırdalıqlardan isə imtina etməli olacağıq — əks halda mühazirə onlarla saat davam edə bilər. Lakin biz ən məşhur, əsas tarixi fiqurlar və hadisələr üzərində dayanacağıq ki, məhz bu obrazlar vasitəsilə militarizasiya prosesinin xüsusiyyətlərini və militarizm ideologiyasını daha aydın şəkildə izah edək.

Bu hadisənin başlanğıcında çoxlu sayda insan dayanmışdı. Onların əksəriyyətinin adı çoxdan unudulub. Lakin ən məşhur şəxslərin — əsasən hakim elita nümayəndələrinin, zadəgan və monarxların — fəaliyyəti bir çox tarixçilərin araşdırmaları sayəsində yaxşı məlumdur.

## ORTA ƏSRLƏR FRANSA

Yenə də söhbətə bir sərkərdə və ya monarxdan deyil, XV əsrin birinci yarısında yaşamış məşhur maliyyəçi Jak Kördən başlamaq daha yaxşı olar. Bu dövr — Yüzillik müharibə və Janna d'Arkın zamanıdır. Burj şəhərindən olan varlı kürk tacirinin oğlu Jak Kör Şərqi Aralıq dənizi ilə apardığı ticarət — ipək, fars xalçaları və s. — sayəsində daha da varlanmışdı. Karyerasının zirvəsində isə o, Fransa kralı VII Karlın sarayında kral xəzinədarı vəzifəsini tuturdu.

Bulqakovun məşhur "Ustad və Marqarita" romanında "Şeytanın böyük ziyafəti"nin açılışını edən məhz bu personajdır. Korovyev Marqaritanın qulağına pıçıldayır: "Kraliça, sizə ən maraqlı kişilərdən birini tövsiyə edirəm. Qətiyyən islah olmayan saxta pul kəsən, dövlət xaini, amma olduqca yaxşı kimyagər. O, kralın məşuqəsini zəhərləməsi ilə məşhurlaşıb".

Vacib olan, bu sözlərin nə qədərinin həqiqət, nə qədərinin uydurma olması deyil — Jak Körün kralın sevimlisi Anyes Soreli zəhərləyib-zəhərləmədiyi də (böyük ehtimalla bu, ona atılmış böhtan idi) bizim mövzunun mahiyyətini dəyişmir. Bizim üçün daha önəmlisi odur ki, bəzi tarixçilərin fikrincə, Jak Kör — ilk olmasa da — **dövlətin hətta sülh dövründə belə silahlı qüvvəyə sahib olmasının** vacibliyini dilə gətirən ilk şəxslərdən biri idi.

**Gələcəkdə bu meyl çoxsaylı, müntəzəm orduların yaradılmasına gətirib çıxaracaqdı.** Təsadüfi deyil ki, öz dövrünün ən varlı adamlarından biri olan Jak Kör eyni zamanda Fransa krallığında formalaşmaqda olan kapitalist iqtisadiyyatının başlanğıcında duran şəxslərdən biri idi.

## NİDERLAND

Bir anlıq Fransadan ayrılıb XVI əsrin sonu – XVII əsrin əvvəlinə, yəni Erkən Yeni dövrün başlanğıcına gedək, o dövrdə hələ Niderlandlar adlanan ərazilərə — bugünkü Hollandiya, Belçika və Lüksemburqa. 1585–1625-ci illərdə Moris Oranski bu ərazilərin ştatqalteri, yəni hökmdarı idi.

Bu dövlət xadimi və öz dövrünün tanınmış sərkərdəsi (bu iki fəaliyyət sahəsinin qovuşması həmin dövrün hərbiləşməsinin mühüm əlamətlərindən biri kimi qəbul olunur) Niderlandların banisi hesab olunur.

O, hərb işində dönüş yaratmış əsas simalardan biri sayılır. 1590-cı ildə Moris dünyada ilk hərbi akademiyanı yaradır. Burada xüsusilə qeyd etmək lazımdır ki, **müasir kütləvi təhsil institutlarının formalaşması da birbaşa hərbiləşmə ilə əlaqəli idi**. Daha çox zabitə, artilleriya və

ümumiyyətlə odlu silahlardan istifadə etməyi bacaran daha çox insana ehtiyac yaranmışdı. O, hərbi işlə bağlı praktik vəsaitlərin və dərsliklərin müəllifi idi. Məsələn, piyada əsgərləri üçün qaydalar toplusu. Həmçinin yeni süvari növü — reytarlar və ya kirasirləri yaratmışdı. Bunlar ağır silahlanmış süvarilər idi, digər silahlarla yanaşı, odlu silahlardan da istifadə edirdilər.

Bütün bu yeniliklər bəzən "Səksənillik müharibə" adlandırılan — başqa sözlə, Niderland inqilabı, sovet tarixşünaslığında isə Niderland burjua inqilabı kimi tanınan — XVI əsrin ortalarında, 1566–1568-ci illərdə başlamış prosesin gedişində tətbiq olunurdu.

Müasir Hollandiya, Belçika və Lüksemburq sakinlərinin İspaniya krallığı ilə uzun sürən qarşıdurması Otuzillik müharibənin sonuna təsadüf etdi. Moris 1625-ci ildə vəfat etdi və bu münaqişənin tamamlanmasını görməyə macal tapmadı. Onun ən mühüm yeniliyi muzdlu döyüşçülər əvəzinə yerli əhalidən toplanan əsgərlərin tətbiqi idi. Başqa sözlə, bu, müəyyən bir ərazi və ya ölkə əhalisi üçün hərbi mükəlləfiyyət sistemini yaratmağa yönəlmiş ilk cəhd olmasa da, ilklərdən biri və ən ardıcılı idi.

Niderlandların bu dəyişikliklərin mərkəzinə çevrilməsi təsadüfi deyildi və təkcə uzunmüddətli müharibə ilə bağlı olmamışdı. Moris Oranskinin yaşadığı dövrdə bu torpaqlarda sürətlə varlanan və nüfuz qazanan burjuaziya formalaşır, fabrik istehsalının sələfləri olan çoxsaylı manufakturalar yaranırdı. Holland Ost-Hind şirkəti (imperiya ekspansiyasının mühüm institutlarından biri) 1602-ci ildə Amsterdamda dünyanın ilk Fond birjasını yaradır və qiymətli kağızlar, səhmlərlə ticarətə başlayır. Bu ərazilərdə bank işi də sürətlə inkişaf edir. Bir sözlə, XVII əsrdə Niderlandlar dünya ticarətinin və öz dövrünün ən müasir maliyyə institutlarının mərkəzinə çevrilir.

Uzunmüddətli müharibə aparmaq və böyük müntəzəm ordu saxlamaq üçün ciddi maliyyə vəsaiti tələb olunurdu. Moris Oranski də öz islahatlarını və müxtəlif təcrübələrini idarə etdiyi ərazilərdə kapitalist istehsal münasibətlərinin sürətlə formalaşması hesabına həyata keçirə bilirdi. Niderlandlarda onun bu təcrübələri üçün kifayət qədər vəsait var idi.

## İSVEÇ

Növbəti tarixi personaj — Qustav II Adolf — 1594-cü ildə İsveç Krallığının paytaxtı Stokholmda dünyaya gəlib. Nisbətən qısa ömür sürməsinə baxmayaraq — o, 1632-ci ildə qanlı Otuzillik müharibə zamanı Lützen döyüşündə həlak olmuşdu — Qustav həm böyük sərkərdə kimi şöhrət qaza-

nıb, həm də müasir hərb məktəbinin banilərindən biri kimi tarixdə özünə yer edib. O, tarixçilərin "İsveç imperiyası" adlandırdıqları dövlətin qurucularından biri idi. Qustav Adolf hərbi taktika və strategiya sahəsində bir çox islahatların və yeniliklərin müəllifi olub.

Ona atası IX Karldan mərkəzləşdirilmiş monarxiya sistemi miras qalmışdı. Bu sistem ona Alman torpaqları, Fransa və ya Niderlandlarla müqayisədə daha kasıb və əhalinin seyrək yaşadığı ərazilərinin resurslarını səmərəli şəkildə səfərbər etməyə imkan verirdi. İsveç imperiyası üçün bu dövr əsasən böyüyən ordunun tələbatlarının təmin edilməsi ilə bağlı olan iqtisadi yüksəliş mərhələsi idi.

Onu da qeyd etmək lazımdır ki, Qustav Adolf sərt intizam tərəfdarı idi. Bədnam **"şpitsruten"** cəzasının ixtiraçısı məhz o hesab edilir. Günahkar sayılan əsgər iki sıra ilə düzülmüş silahdaşlarının arasından keçirilir və hər iki tərəfdən uzun əsnək çubuqlarla döyülürdü. Sonralar bu cəza növü Prussiya, Rusiya və digər ordularda geniş tətbiq olunmuşdu. Uzun sıra və minlərlə zərbə faktiki olaraq günahkar üçün amansız və əzablı ölüm hökmünə bərabər idi.

Xatırladım ki, onun birbaşa törəməsi XII Karl — 1697-ci ildən 1718-ci ilə qədər İsveç imperiyasının hökmdarı — Rusiya imperiyasının banisi I Pyotr üçün ən məşhur və ən təhlükəli rəqiblərdən biri olmuşdu. I Pyotrun dövründə Rusiya imperiyası Avropanın müxtəlif ölkələrində yayılmış yenilikləri mənimsəyərək, hərbiləşmə prosesinə fəal şəkildə qoşuldu. Söhbət təkcə orduların formalaşdırılması üsullarından və hərbi əməliyyatların aparılması qaydalarından yox, həm də artan militarist tələbatı təmin edən manufakturaların yaradılmasından gedirdi. Bütün Avropa ölkələrində olduğu kimi, burada da çuqun və dəmir – toplar və digər silah növləri üçün lazım olan materialların istehsalı, müxtəlif sursat (elə barıtın özü), hərbi geyim, gəmiqayırma və ərzaq təchizatı ilə bağlı bütün sahələr sürətlə inkişaf edirdi.

## OTUZ İLLİK MÜHARİBƏ

18-ci əsrə keçməzdən əvvəl Otuzillik müharibə haqqında bir neçə söz əlavə etmək vacibdir. 1618-ci ildə başlayıb 1648-ci ildə Vestfaliya sülhü ilə başa çatan bu ilk və son dərəcə qanlı ümumavropa qarşıdurması Avropa cəmiyyətlərinin militarizasiya prosesində ən mühüm mərhələlərdən biri olmuşdu. Bu müharibənin qurbanlarının dəqiq sayı məlum deyil. Lakin ən optimist hesablamalara görə, söhbət azı beş milyon insandan gedə bilər. Bəzən 7 milyon, 9 milyon, hətta daha artıq rəqəmlər də göstərilir. Ən çox zərəri sonradan Almaniyanın tərkibinə daxil olmuş ərazilər

görmüşdü. Bəzi bölgələr əhalisinin yarıdan çoxunu itirmişdi. Bu, həmin hadisələrin iştirakçılarının həyata keçirdiyi hərbi eksperimentlərin və islahatların qiyməti idi.

Moris Oranski və Qustav Adolfla yanaşı, onların rəqiblərindən bəzilərini də xatırlamaq lazımdır. Məsələn, Müqəddəs Roma imperiyasının generalissimusu Albrext fon Vallenşteyni, yaxud feldmarşal qraf fon Tillini, ya da Aleksandr Dümanın romanı sayəsində geniş şöhrət qazanmış Kardinal Arman de Rişelyeni. Onların hamısı böyük orduların maliyyələşdirilməsi və təminatı üçün yollar axtarırdı. **Məhz bu müharibə dövründə qoşunların işğal olunmuş ərazilərin hesabına təmin edilməsi adi hala çevrildi ki, bu da əhali arasında genişmiqyaslı talanlara, kütləvi zorakılığa və qarətə səbəb olurdu.** Ümumilikdə, Otuzillik müharibə son dərəcə qəddarlığı ilə seçilirdi.

Bertolt Brext İkinci Dünya müharibəsi ərəfəsində yazdığı "Ana Kuraj və onun uşaqları" pyesində Otuzillik müharibədə baş verən hadisələri əks etdirib. Hiyləgər və diribaş markitant qadın – ana Kuraj müharibədən qazanc götürür. Onun oğullarından birini orduya cəlb etmək istəyəndə personajlardan biri – feldfebel kinayə ilə deyir: "Hə, müharibədən çörək istəyirsənsə, ona ət verməlisən."

Bu müharibənin epizodlarından biri – 1631-ci ildə imperiya qoşunlarının Maqdeburq şəhərini mühasirəyə alıb, ələ keçirməsi. Bu hadisə həm də "Maqdeburq qırğını" adı ilə tanınır. Təxminən 30 min şəhər sakininin cəmi beş minə yaxını sağ qalmışdı. Bir çoxları yanğında həlak olmuşdu. Şəhər tamamilə xarabalığa çevrilmişdi. Əsgərlər qadın ovuna çıxmışdı və təxminən beş min maqdeburqlu qadını əsir götürmüşdülər. Yəni bu, qadınlara qarşı kütləvi zorakılığın daha bir nümunəsi idi. Bu qanlı hadisələr alman dilində xüsusi bir neologizmin yaranmasına səbəb oldu — "**maqdeburqizasiya**" — total məhv, kütləvi zorakılıq və qarətin sinonimi.

Hollandiyalı filosof, beynəlxalq hüququn banisi və həmin dövrün çağdaşı olan Huqo Qrotsi haqqında Maykl Roberts belə qeyd edir:

> "O, əsirlərin öldürülməsinin qanuni olduğunu [...]; təslim olsalar belə, düşmən torpaqlarının və şəhərlərinin qeyd-şərtsiz viran edilməsinin mümkünlüyünü; mülki əhalinin xüsusi münasibət görmək hüququnun olmadığını öyrədirdi və deyirdi ki, " müharibə hüququnda nəzərdə tutulduğu kimi qadınların və uşaqların öldürülməsi cəzasız qala bilər". Özünəməxsus vərdişinə uyğun olaraq bu mövqeyini 137-ci məzmurdan münasib bir sitatla möhkəmləndirirdi: "Sənin körpələrini götürüb daşlara çırpan nə xoşbəxtdir!" [...]. Qrotsinin barışmaq məcburiyyətində qaldığı həmin

> dövrün tamamilə qəddar [Otuzillik] müharibəsi Leviafan məntiqinə xüsusi bir kəskinlik vermişdi".

Xatırladım ki, dövlətin "Leviafan" — Müqəddəs Kitabda təsvir olunan nəhəng, od püskürən mifoloji ilan obrazı ilə eynləşdirilməsi Otuzillik müharibənin başqa bir çağdaşı, ingilis filosofu Tomas Hobbsa aid idi. Onun əsərlərində bu qüdrətli məxluq güclü dövlət hakimiyyətinin metaforasına çevrilir.

Unutmayaq ki, bir çox elmi kəşflərin və müxtəlif yeniliklərin səbəbi olmuş militarizmin (hərb tərəfdarlarının dediyi kimi) **bu nailiyyətləri çox baha başa gəlirdi**. Amansız müharibələr və milyonlarla məhv edilmiş insan həyatı; dövlətin güclənməsi və təbəələrin, sonralar isə vətəndaşların həyatına nəzarətinin artması ilə yanaşı gedən zorakılığın və dağıdıcılığın durmadan yüksəlməsi... Bütün bunlar daim ödənilməli olan bədəl idi. Əsrdən-əsrə, krallıqlardan respublikalara keçdikcə Leviafanın güclü və qüdrəti daha da artırdı. Otuzillik müharibədən sonrakı əsrlərdə dövlət hakimiyyəti, Brextin personajı - açıqsözlü feldfebelin dili ilə desək, növbəti müharibəyə göndərmək üçün "ət" toplama aparatını ardıcıl şəkildə inkişaf etdirirdi. Bu bədəl daim artırdı, çoxsaylı burjua sahibkarları və kapitalistlər isə daha çox "çörək" qazanır, müharibələrdən və militarizasiyadan nəhəng sərvətlər toplamaq üçün getdikcə daha geniş imkanlar əldə edirdilər.

## PRUSİYA

Gəlin dərhal XVIII əsrə və başqa bir krallığa — Prussiyaya keçək. İmmanuel Kantın dövrünə yollanaq. Bu məşhur alman filosofu uzun ömrünün böyük hissəsini Prussiya krallığını idarə edən Hohensollernlər sülaləsinin iki hökmdarının dövründə yaşamışdı.

Birinci Fridrix Vilhelm Prussiyanı — o dövrün ən böyük alman krallığını — 27 il, 1740-cı ilə qədər idarə etmişdi. Hərbi təlimə, nizam-intizama və orduya olan hədsiz sevgisinə görə onu "əsgər-kral" adlandırırdılar. Doğrudur, onun bu qədər xoş səslənməyən çox sayda ləqəbləri də vardı. Tarixçi Volfqanq Fenorun sözlərinə görə, "Prussiyanın əsgər-kralı həmişə bədnam olub. Avropanın bütün saraylarında prussiyalı «axmaq əsgəri» məsxərəyə qoyurdular". Onu "taxtdakı feldfebel" adlandırırdılar.

Kantın müasiri məşhur filosof və mütəfəkkir Volter öz memuarlarında Fridrix Vilhelm haqqında belə yazırdı:

> “O, əsl vandal idi, bütün hakimiyyəti dövründə yalnız bir şey haqqında düşünürdü — mümkün qədər çox pul toplamaq və ən az xərclə Avropanın ən yaxşı qoşunlarını saxlamaq”.

Lakin Volterin sözləri ilə desək, Avropanın ən yaxşı qoşunlarını məhz bu “vandal” kral yaratmışdı. Onun bu sahədəki nailiyyətlərinin sirri isə əsasən krallığın iqtisadiyyatını “ən yaxşı qoşunların” yaradılması və saxlanılması məqsədlərinə tabe etdirməsində idi. Başqa sözlə, o, təkcə hərbi islahatçı deyildi. Taxta çıxan kimi krallığın başında öz mövqeyini belə ifadə etmişdi:

“Mən, Fridrix Vilhelm, Prussiya krallığının baş maliyyəçisi və feldmarşalıyam”.

Fenorun sözlərinə görə, onun ən böyük ehtirası gəlirlərin hesablanması, qənaətcillik və maliyyəyə nəzarət idi. Bu ehtiras özünü gənc yaşlarından göstərməyə başlamışdı. On yaşı tamam olanda atası ona Vusterhauzen ov qalasını hədiyyə etmiş və bununla birlikdə kənd uşaqlarından ibarət, oyuncaq tüfənglərlə silahlandırılmış bir kadet rotasını da onun ixtiyarına vermişdi.

Volfqanq Fenor vurğulayır ki, hələ uşaqlıqdan idarə etdiyi və

> “yarısı kəndli malikanəsi, yarısı isə hərbi hissə olan bu mülk sayəsində — vəliəhd şahzadədə ordu ilə maliyyə arasındakı ayrılmaz əlaqənin, dövlətlə ordu arasındakı iqtisadi qarşılıqlı asılılığın səbəblərinə dair dərin bir anlayış formalaşmışdı“.

**“Prussiya muştrası (cəza)”** ifadəsi Fridrix Vilhelmin adı ilə bağlıdır. Bu, eyni sıravi hərəkətlərin dəfələrlə və ağır məşqlərlə təkrarlanması yolu ilə formalaşdırılan son dərəcə sərt intizam deməkdir. O, bununla XVIII əsr üçün son dərəcə effektiv sayılan yeni xətti döyüş taktikasını yaratmışdı. Orduda xidmət bundan sonra sərt intizama əsaslanan ciddi təşkilatlanma üzərində qurulurdu. Vahid mavi forma — həmin illərdə məşhur olan “Berlin mavisi” isə dəyişikliklərin simvoluna çevrilmişdi. Bu rəng indən belə Prussiya ordusuna mənsubiyyətin rəmzi sayılırdı.

Amma daha vacibi odur ki, Fridrix Vilhelmin çox sevdiyi və yaxşı başa düşdüyü bu militarist təşkilatlanma **bütün dövlətə sirayət edirdi**.

Fenorun qeyd etdiyi kimi:

> “Ən başından o, Prussiya dünyasını kökündən dəyişmək, onu Allah qorxusu ilə yanaşı ən ali hesab etdiyi iki qanun — qənaət və nizam qanunları əsasında yenidən qurmaq qərarına gəlmişdi. O, özünü Tanrının Prussiyadakı elçisi sayırdı və burada hamı ona kor-

> korana tabe olmalı idi. Onun rəhbərliyi altında bütün dövlət bir batalyon kimi irəliyə doğru hərəkət etməliydi: düz cərgələrdə, hamı çiyin-çiyinə".

Elə həmin Fenorun sözlərinə görə, Fridrix Vilhelmə "Prussiya iqtisadiyyatını ordunun tələblərinə uyğun şəkildə yenidən qurmaq [...] və ordunu yeni milli iqtisadiyyatın əsas hərəkətverici qüvvəsinə çevirmək müyəssər olmuşdu".

Prussiyanın yun emalı sənayesi yeni iqtisadiyyatın əsas komponentinə çevrilmişdi. Onun ən mühüm vəzifəsi durmadan böyüyən ordu üçün geyim istehsal etmək idi. Manufakturalar bütün krallıq boyu yaradılırdı. Artıq 1725-ci ildə Prussiya Rusiya imperiyasına hərbi geyim tədarükünə başlamışdı. Bu sahədən sonra isə silah istehsal edən manufakturalar yaradıldı. Onun hakimiyyətinin sonuna doğru Prussiya ordunu silah-sursatla tam təmin edirdi.

**Dövlət büdcəsinin bölgüsü** Prussiyada XVIII **əsrdə cəmiyyətin və iqtisadiyyatın nə dərəcədə militarist olunduğunu açıq şəkildə göstərir.** 1713-cü ildə, Fridrix Vilhelmin hakimiyyətə gəlməsindən əvvəl, ordunun saxlanmasına 2,4 milyon taler xərclənirdi, halbuki bütün digər hərbi olmayan xərclər bunun yarısını – cəmi 1,2 milyon təşkil edirdi. Onun hakimiyyətinin sonuna doğru krallığın büdcəsi iki dəfə artmışdı. Lakin nisbət dəyişməz qalmışdı: 4 milyon 800 min taler ordunun saxlanmasına, bundan iki dəfə az – 2 milyon 400 min taler isə bütün digər xərclərə yönəldilirdi. Bu cür disbalans qeyri-adi sayılmırdı. Digər krallıq və imperiyaların büdcələrində də əsas maddələri orduların saxlanmasına və müharibələrin aparılmasına çəkilən xərclər təşkil edirdi.

## MAARIFLİ MÜTLƏQİYYƏT

Birinci Fridrix Vilhelm öz krallığını sevmədiyi böyük oğluna – öz növbəsində atasına nifrət edən II Fridrixə miras qoydu. II Fridrix dövləti idarə etdiyi müddətdə adının qarşısına "Böyük" epitetini qazanmışdı. Volterin qeyd etdiyimiz memuarlarında ata ilə oğul arasındakı münasibətlər belə təsvir olunur:

> "Bu vandalın [I Fridrix Vilhelmin] üstün zəkaya, zərifliyə, nəzakətə və xoş görünmək istəyinə sahib, özü üzərində çalışan, musiqi ilə məşğul olan və şeir yazan bir oğlunun böyüdüyünü görüb necə təəccübləndiyini və qəzəbləndiyini təsəvvür etmək mümkündür. O, varis şahzadənin əlində kitab gördüyü zaman, dərhal əlindən

> alıb ocağa atırdı. Şahzadə fleyta çalırdısa, atası həmin fleytanı sındırırdı…”

Bu cür xarakteri filosof-kral adlandırılan Böyük Fridrixin atasının militarist və maliyyə siyasətinə sadiq qalmasına heç də mane olmadı. İkinci Fridrix maariflənmiş absolyutizm dövrünün ən parlaq nümayəndələrindən biri idi. Bu elə bir dövr idi ki, bir çox monarxlar dövlət üzərində mütləq hakimiyyətə sahib olduqları halda, Maarifçilik ideyalarına sədaqətlərini bəyan edirdilər. İqtisadi siyasətdə isə Böyük Fridrix atası kimi və Avropanın əksər monarxları kimi — merkantilizm siyasətinə sadiq qalırdı.

> “Merkantilizm beynəlxalq ticarətin intensiv aparılmasını, idxal və ixracın müsbət balansını diktə edirdi”.

Şimali Avrasiyanın Yeni İmperiya Tarixi, cild 2.

Daha çox mal gətirmək və daha az mal çıxarmaq, ölkə təsərrüfatını yüksək rüsumlarla qorumaq və mümkün qədər çox qiymətli metal toplamağa çalışmaq. Orduya gəldikdə isə, **o, kiçik rütbəlilərin böyük rütbəlilərə qeyd-şərtsiz tabe olması və eyni dərəcədə sərt intizam üzərində qurulurdu**. Tarixçi Yuri Nenaxovun sözlərinə görə, bu sistem

> “əsgərlərin həyatının hər dəqiqəsini tənzimləyən nizamnamə və təlimatların dəmir qaydaları ilə möhkəmləndirilirdi. Prussiya ordusunda çubuq hər hansı başqa Avropa ölkəsinin qoşunları ilə müqayisədə daha böyük, hətta bəlkə də həlledici rol oynayırdı”.

Bir çox zabitlər sonradan məmur olur və orduda xidmət zamanı alışdıqları sərt şəkildə tənzimlənmiş militarist təcrübələri özləri ilə birlikdə mülki idarəetməyə də gətirirdilər. **Belə militarist cəmiyyətdə hərbçilərə verilən nəzərəçarpan və şərəfli mövqe həmin dövrün yalnız** Prussiyada deyil, bir çox digər Avropa monarxiyalarında da səciyyəvi xüsusiyyəti olmuşdu.

Tarixçi Fridrix Meyneke bu vəziyyəti belə təsvir edir:

> “Prussiyalı leytenant dünyada bir tanrı kimi addımlayırdı, burjua ehtiyat leytenantı isə ən azı yarımtanrı sayılırdı. Burjua cəmiyyətində və xüsusilə də dövlət qulluğunda sənə ciddi yanaşılması üçün mütləq ehtiyat zabiti rütbəsi almaq lazım gəlirdi”.

> “Peşə sahəsindəki ən yüksək nailiyyətlər — həm təlim, həm də döyüş meydanında — mütləq dəyərə çevrilmişdi. Üstəlik təlimdə bunlara xüsusi hesablamalar və texnika da əlavə olunurdu. Burada insanı əhlilləşdirirdilər, yəni rasionallaşdırılmış bir sxem üzrə onu başqalarının müəyyənləşdirdiyi məqsəd naminə kor-koranə

> həyatını qurban verməyə hazır olan varlığa çevirirdilər. İnsan böyük maşının kiçik bir vintinə, çarxına dönürdü [...]. Bu mexaniki möcüzə isə öz-özünə məqsədə çevrilirdi, ölkədə hər kəs onun qarşısında baş əyməli idi".

Bu sistemi yalnız maarifçi absolyutizm deyil, həm də **hərbi-bürokratik absolyutizm** adlandırmaq olar. Hərbi formalı monarx mütləq hökmdar sayılırdı. Həm ordu, həm də çox cəhətdən militarist prinsiplərlə qurulmuş bürokratik aparat onun əsas dayağı idi — rütbələr, dərəcələr, sərt tabeçilik, xüsusi məmur intizamı.

XVIII əsrin sonuna doğru iki hadisə dövlətin fəaliyyət prinsiplərində və iqtisadiyyatda radikal dəyişikliklərə səbəb olacaqdı. Təxminən 1780-ci illərdə onilliklər boyu davam edən **Britaniya sənaye inqilabı** başladı. Böyük Britaniya dəmir yolları və fabrikləri ilə kapitalist iqtisadiyyatın inkişafı üçün digər ölkələrə də nümunə oldu.

## NAPOLEON FRANSA

1789-cu ilin yayında Böyük Fransa inqilabı başladı. Bu hadisə bir sıra səbəblərə görə son dərəcə əhəmiyyətli idi. Tarixçi Erik Hobsbaumın sözlərinə görə:

> "Əvvəla, o, Avropanın (Rusiya istisna olmaqla) ən güclü və ən sıx məskunlaşmış dövlətinin ərazisində baş verdi. 1789-cu ildə hər beş avropalıdan biri fransız idi."

İkincisi, bu inqilab

> "ən kütləvi sosial inqilab idi və hər hansı digər inqilabla müqayisədə qat-qat daha radikal xarakter daşıyırdı".

Nəhayət,

> "üçüncüsü, bütün müasir inqilablar arasında yalnız o, dünya miqyaslı idi. Onun orduları həm inqilabı, həm də onun ideyalarını bütün dünyaya yaydılar".

Bu inqilabın daha bir son dərəcə mühüm nəticəsi ondan ibarət idi ki:

> "Fransa millətçiliyin ilk böyük nümunəsi, konsepsiyası və lüğətinə çevrildi".

Fransanın inqilab, daha sonra isə Napoleon dövründə Britaniya imperiyası ilə rəqabəti, 1804-cü ildə imperator elan olunan Napoleon Bonapartın ambisiyaları və Böyük Britaniyanın onun Avropa qitəsində hökmran-

lığının qarşısını almaq cəhdləri, həmçinin okeanın o tayındakı ərazilər uğrunda mübarizə — bütün bunlar uzunmüddətli silahlı qarşıdurmaya gətirib çıxardı. Elə həmin Erik Hobsbaumun sözlərinə görə, 1792–1815-ci illər arasında Avropada müharibə demək olar ki, bir an belə dayanmadı. Napoleon dövründə bitib-tükənməyən müharibələrin aparılması və say-ca böyük orduların saxlanması üçün çəkilən maliyyə xərcləri imperiya-nın ümumi büdcəsinin heç vaxt 60 faizindən aşağı düşmürdü. Üstəlik bütün bunlar Napoleon dövründə orduların təminatı üçün fəth edilən ərazilərin resurslarından istifadə prinsipinin geniş şəkildə tətbiq olun-masına baxmayaraq baş verirdi. Beləliklə, Fransada formalaşmaqda olan kapitalist iqtisadiyyat ilk növbədə ordunun maraqlarına xidmət üz-ərində və müharibələr hesabına inkişaf edirdi.

Fransa döyüş meydanına yüz minlərlə insandan ibarət ən böyük orduları çıxarırdı. Rusiya imperiyasına hücum zamanı Fransa ordusunun sayı 700 minə çatmışdı. Bu hadisələr isə XIX əsr boyunca kütləvi milli orduların formalaşmasına bir növ proloq oldu.

## HƏRBİ ÇAĞIRIŞ

Tarixçi Yucin Veberin sözlərinə görə:

> "Fransada sistemli hərbi mükəlləfiyyət 1798-ci ildən başlayır. Onun ümumi xüsusiyyətləri [...] imperiya dövründə formalaşdı; məhz Napoleon çağırış lotereyasını tətbiq etdi və hərbi xidmətdən azad olunma əsaslarını müəyyənləşdirdi".

Konskripsiya — orduda xidmətə çağırışın püşkatma əsasında həyata ke-çirilməsini bildirən termindir. Başqa sözlə, çağırış yaşında olan kişilər hərbi xidmət üçün püşkatmada iştirak edirdilər. Dönüş nöqtəsi isə ondan ibarət idi ki, **konskripsiya ümumi hərbi mükəlləfiyyət prinsipinin tədri-cən tətbiq olunmasına gətirib çıxarırdı**. Fransadakı konskripsiya bir çox digər ölkələr üçün nümunəyə çevrildi. Bu, hər hansı bir ölkənin sakinləri — müəyyən yaş kateqoriyasına aid olan kişilər üçün yeni bir formada ümumi hərbi mükəlləfiyyət idi; onlar artıq mütləq şəkildə orduya xidmə-tə getməli idilər. Ordular getdikcə daha çoxsaylı olur və tədricən milli xarakter qazanırdı.

Birinci Dünya müharibəsinin əvvəlinə gəldikdə isə bu sistem XX əsrdən bizə yaxşı tanış olan cizgiləri özündə əks etdirməyə başlamışdı. Yucin Veber fransız cəmiyyətinin Böyük Fəlakət (Birinci Dünya Müharibəsinə sonradan verilən ad) ərəfəsində kütləvi militarizasiya prosesinin tamam-lanmasını belə təsvir edir:

> “1889-cu ilə doğru xidmət müddəti üç ilə endirilmiş, 1500 franklıq güzəşt ləğv olunmuşdu və əvvəllər xidmətdən azad edilənlərin hamısı (tələbələr, müəllimlər, ruhanilər, yarıyoxsullar, dul qadınların və çoxuşaqlı ailələrin böyük oğulları) bir il bayraq altında xidmət etməli idilər. Bu tədbir böyük populyarlıq qazanmışdı. Elə həmin məqam fiziki sağlam fransız kişilərin hamısının milli bayraq altında xidmət keçməyə başlamasının həlledici dönüş nöqtəsi oldu. 1905-ci ildə hər kəs üçün xidmət müddəti iki ilə qədər artırıldı, 1913-cü ildə isə yenidən üç ilə çatdırıldı.”

Daha sonra Fransa digər Avropa dövlətləri — Almaniya, Böyük Britaniya, Rusiya imperiyası, İtaliya və başqaları kimi Birinci Dünya müharibəsinin cəbhələrinə milyonluq ordular göndərdi.

“Hərbi inqilab” termininin müəllifi olan Maykl Roberts öz təhlilini belə yekunlaşdırır:

> “1560–1660-cı illər arasında Avropa dünyasında böyük və geri dönməz transformasiya baş verdi. [...] 1660-cı il ərəfəsində müasir hərbi sənət doğulmuşdu. Kütləvi ordular, sərt intizam, dövlət nəzarəti, fərdiyyətin boğulması — bütün bunlar artıq reallığa çevrilmişdi; maliyyə hakimiyyəti ilə tətbiqi elmin birgə hökmranlığı bütün qəddarlığı ilə möhkəmlənmişdi; təbliğatın, psixoloji müharibənin və terrorizmin hərbi silah kimi tətbiqi isə həm nəzəriyyəçilərə, həm də döyüş meydanındakı sərkərdələrə yaxşı məlum idi. Müharibənin dini və etik legitimliyinə dair son şübhələr də, sanki, aradan qaldırılmışdı. İyirminci əsrin uçurumuna doğru yol açıq, geniş və dümdüz idi”.

## Nəticə

Burada dayanacağıq. Birinci Dünya müharibəsinə sürüklənmə mövzusu və XX əsrdə militarizasiya prosesi ayrıca müzakirə tələb edir.

Nəticə olaraq yalnız bir şeyi qeyd edim ki, tez-tez belə fikirləri eşitmək olur: guya kapitalizm və millətçiliklə yanaşı addımlayan militarizm daha varlı cəmiyyətlərin formalaşmasına şərait yaradıb. Doğrudan da, bir çox faydalı ixtiralar birbaşa militarizasiya və müharibələrlə bağlıdır. Lakin bu məntiqə görə militarizasiya uğrunda verilən qurbanlar guya ikinci dərəcəli, hətta əsaslandırılmış kimi görünür. XVII, XVIII və XIX əsrlərdə saysız-hesabsız müharibələrdə həlak olan insanlar bizə sanki hansısa uydurma bir tamaşanın aktyorları kimi qeyri-real təsir bağışlayır. Amma onlar da bizim, sizin kimi insanlar idi. Onların həyatı nə tərəqqi, nə də yeni

ixtiralar naminə dağıdılmış və qurban edilmişdi. Əslində isə hər şey tam əksinə idi. Müharibələrə baş vuran, cəmiyyətlərini hərbiləşdirən, onları kütləvi zorakılığa sürükləyən hakim siniflərin nümayəndələri, militaristlər və kapitalistlər tamamilə başqa məqsədlər güdürdülər. Onlar hərbi üstünlük və hökmranlıq əldə etməyə çalışırdılar. Bütün bu sistem dəhşətli istismarlar üzərində qurulmuşdu — XVII–XVIII əsrlərdə manufakturalarda, daha sonra isə XIX əsrdə fabriklərdə iş şəraiti insanı dəhşətə gətirəcək dərəcədə ağır idi. Nəticə etibarilə asanlıqla təsəvvür etmək olar ki, müasir orduların yaradılmasına sərf olunan nəhəng maliyyə vəsaitləri təhsil, səhiyyə, mədəniyyət və elmin inkişafına yönəldilsəydi, faydalı ixtiraların sayı bundan az olmazdı, üstəlik onların əldə olunması üçün ödənilən bədəl heç də bu qədər dəhşətli olmazdı.

Müəllif: Sergey Rumyantsev

Düzülüş: Katya Çiqaleyçik

Başlıq:

“Planetimiz yürüş zamanı tər içində qalan əsgərə bənzəyir: Müasir militarizmin mənşəyi. Tənqidi icmal təcrübəsi”.

“Weg zum Frieden. Demilitarizing Mind – Supporting Peace” layihəsi çərçivəsində audio dərs transkripti.

2025